# Azərbaycan Respublikasi Təhsil Nazirliyi
# Bakı İdarəetmə və Texnologiya Kolleci

## “Bazar iqtisadiyyatının əsasları”

## fənninin

# PROQRAMI

040401 Mühasibat uçotu

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı İdarəetmə və Texnologiya Kollecinin
Metodiki şurasının 15 sentyabr 2017-cı il
tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
(Protokol № 1)

**Bakı 2017**

**Tərtib etdi:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin fənn müəllimi — Abdulova Gülnarə Fazil

**Redaktor:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin fənn müəllimi — Nuriyeva Nabad Məhrəddin

**Rəy verənlər:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin fənn müəllimi — Zeynalova Reyhan Feyruz

## İZAHAT VƏRƏQƏSİ

Bazar iqtisadiyyatı mövcud olan iqtisadi sistemlərin ən geniş yayılanıdır . Bazar iqtisadiyyatı azad sahibkarlıga və mülkiyyət çoxnövlüyünə əsaslanır və bazar tələblidir. Yəni iqtisadiyyat bazar üçün işləyir . Bazar tarixən bazar iqtisadiyyatından əvvəl meydana gəlmişdir.Bazar tələb və təklifin məcmusudur.Bazar alıcılarla satıcılar arasında yaranan iqtisadi münasibətlərin məcmusudur və iqtisadi kateqoriyadır. Bazar əsasən tədavül sferası və alqı-satqı ilə bağlıdır. Bazar iqtisadiyyatı isə daha geniş və əhatəlidir. Bazar iqtisadiyyatı istehsal, istehlak, mübadilə və bölgü sahələrini əhatə edir. İqtisadi sistem kimi bazar iqtisadiyyatının formalaşması kapitalizm cəmiyyətində baş vermişdir. Bazar iqtisadiyyatı kapitalizmin iqtisadi əsasını təşkil edir. Buna görə də ABŞ iqtisadçıları "bazar iqtisadiyyatı-kapitalizm" ifadəsini işlədirlər. Bazar iqtisadiyyatı bütün iqtisadi məktəblər və cərəyanlar tərəfindən öyrənilmiş və indi də öyrənilir. Bazar iqtisadiyyatının nəzəri əsasları klassik siyasi iqtisadın baniləri A.Smit D.Rikardo, K.Marks. və s. tərəfindən yaradılmış və müasir iqtisadi məktəblər tərəfindən daha da inkişaf etdirilir.Beləliklə,bazar iqtisadiyyatının əsas əlamətləri bunlardır: 1)Xüsusi mülkiyyətin inkişafı , 2)Sahibkarlığın azadlığı və maddi məsuliyyət, 3)İqtisadi rəqiblərin azad seçilməsi ,4)Dövlətin iqtisadiyyata minimum müdaxiləsi .

Bir sözlə, bazar iqtisadiyyatının əsas məqsədi daha çox iqtisadi fayda və mənfəət əldə etməkdir. Bu məqsədə nail olmaq üçün həm univesitetlərdə, həm də kolleclərdə "Bazar iqtisadiyyatının əsasları" fənni tədris edilir. Fənnin tədrisinə ayrılan saatların miqdarı 60 saatdır. Tədris planına uyğun olaraq 30 saat mühazirə, 30 saat isə məşğələ üçün nəzərdə tutulmuşdur.

## MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | Mövzuların adları | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1. | Bazar iqtisadiyyatının əsasları fənninin predmeti. Mahiyyəti və yaranması | 2 | 2 |
| 2. | Bazar iqtisadiyyatına keçidin zəruriliyi və onun əsas xüsusiyyətləri | 2 | 2 |
| 3. | Bazar iqtisadiyyatının modelləri və Azərbaycan üçün bazar iqtisadiyyatı modelinin seçilməsi | 2 | 2 |
| 4. | Bazar və bazar iqtisadiyyatı. Bazarın meydana gəlməsi | 2 | 2 |
| 5. | Bazar və ticarət | 2 | 2 |
| 6. | Bazar tarazlığı.Tələb və təklif | 2 | 2 |
| 7. | Marketinq və onun fəaliyyəti | 2 | 2 |
| 8. | Bazar infrastrukturu və onun iqtisadiyyatda rolu | 2 | 2 |
| 9. | Birja,yarmarka və auksionların fəaliyyəti | 2 | 2 |
| 10. | Bazar iqtisadiyyatında mülkiyyətin növü və formaları | 2 | 2 |
| 11. | Dövlətsizləşdirmə və özəlləşdirmə. Azərbaycanda özəlləşdirmənin xüsusiyyətləri | 2 | 2 |
| 12. | Təsərrüfat fəaliyyətinin əsas formaları | 2 | 2 |
| 13. | Bazar iqtisadiyyatının inkişafında rəqabətin mahiyyəti və rolu | 2 | 2 |
| 14. | İqtisadiyyatda inhisarçılıq, inhisar formaları | 2 | 2 |
| 15. | Bazar iqtisadiyyatında istehsal və istehsal xərcləri | 2 | 2 |
| **Cəmi: 60 saat** | | | |

## MÖVZULAR VƏ ONLARIN İZAHI

***Mövzu 1.* Bazar iqtisadiyyatının əsasları fənninin predmeti. Mahiyyəti və yaranması - 4 saat**

Bazar iqtisadiyyatı və onun genetik əsasları. Natural təsərrüfat və əmtəə təsərrüfatı. Natural təsərrüfatın əsas xüsusiyyətləri. Natural təsərrüfatın əsas xarakterik cəhətləri. Əmtəə təsərrüfatı haqqında. Əmtəə və onun xassələri. Əmtəə istehsalının formaları. Əmtəə tədavülü və pulun meydana gəlməsi.

***Mövzu 2*. Bazar iqtisadiyyatına keçidin zəruriliyi və onun əsas xüsusiyyətləri - 4 saat**

Bazar iqtisadiyyatının mahiyyəti. Bazar iqtisadiyyatının əsas cəhətləri. Bazar iqtisadiyyatının əsas obyektləri. Bazar iqtisadiyyatının əsas subyektləri. Bazar iqtisadiyyatının müsbət və mənfi cəhətləri. İnzibati–amirlik sistemindən bazar iqtisadiyyatına keçidin zəruriliyi və yolları. Keçid dövründə Azərbaycanda bazar iqtisadiyyatının formalaşmasının təşkili.

***Mövzu 3*. Bazar iqtisadiyyatının modelləri və Azərbaycan üçün bazar iqtisa-diyyatı modelinin seçilməsi – 4 saat**

Bazar iqtisadiyyatının tipləri. Azad sahibkarlığa və azad rəqabətə əsaslanan bazar iqtisadiyyatı. Azad rəqabətə və inhisara əsaslanan bazar iqtisadiyyatı. Qarışıq bazar iqtisadiyyatı. Bazar iqtisadiyyatı modelinin növləri:

- Liberal model
- Sosial yönümlü bazar iqtisadiyyatı modeli
- sosial-demokrat model

Bazar iqtisadiyyatı modellərinin əsas xüsusiyyətləri .Sosial yönümlü bazar iqtisadiyyatı və Azərbaycan.

***Mövzu 4.* Bazar və bazar iqtisadiyyatı. Bazarın meydana gəlməsi – 4 saat**

Bazar və onun fəaliyyət mexanizmi. Bazarın mahiyyəti. Bazarın meydana gəlməsinin səbəbləri. Bazarın növləri. İstehlak malları bazarı. İstehsal vasitələri bazarı. Əmək bazarı. Valyuta bazarı. Bazarın əsas tipləri. Azad bazar. Qeyri- leqal bazar. Tənzimlənən bazar. Tənzimlənən bazarın əsas cəhətləri. Azad bazarın əsas əlamətləri. Qeyri- leqal bazarın xüsusiyyətləri.

***Mövzu 5.* Bazar və ticarət - 4 saat**

Bazar iqtisadi sistemində ticarətin təşkili. Ticarətin mahiyyəti .Ticarətin formaları. Pərakəndə satış ticarəti. Topdan satış ticarəti. Daxili ticarət və xarici ticarət. İdxal və ixrac əməliyyatları. Azərbaycanın beynəlxalq ticarətdə iştirakı. Dünya ölkələri ilə ticarət münasibətləri. Beynəlxalq ticarəti şərtləndirən əsas amillər .

***Mövzu 6.*** **Bazar tarazlığı.Tələb və təklif – 4 saat**

Tələb. Tələbə təsir edən amillər. Qiymət amilləri və qeyri - qiymət amilləri. Tələb qanunu. Tələbin elastikliyi. Tələbin qeyri - elastikliyi. Tarazlıq nöqtəsi. Fərdi və bazar tələbi.

Təklif. Təklifə təsir edən amillər. Təklifə təsir edən qiymət və qeyri - qiymət amilləri. Təklifin elastikliyi və qeyri - elastikliyi. Qiymətin əmələgəlmə mexanizmi. Bazar tarazlığı.

***Mövzu 7.*** **Marketinq və onun fəaliyyəti – 4 saat**

Marketinqin yaranma səbəbləri. Marketinqin əsas vəzifələri. Marketinqin prinsipləri. Marketinqin strategiyası . Marketinqin taktikası. Müasir marketinqin əsas funksiyaları . Marketinqin analitik funksiyası . Marketinqin istehsal funksiyası . Marketinqin satış funksiyası . İdarəetmə və nəzarət funksiyası . Marketinq tədqiqatının məqsədi.

***Mövzu 8.*** **Bazar infrastrukturu və onun iqtisadiyyatda rolu – 4 saat**

İnfrastruktur termininin mənası. İnfrastrukturun növləri . İstehsal infrastrukturu .Sosial infrastruktur . Bazar infrastrukturu . Müasir bazar infrastrukturunun əsas elementləri . Bazar infrastrukturunun iqtisadiyyatda rolu.

***Mövzu 9.*** **Birja ,yarmarka və auksionların fəaliyyəti – 4 saat**

Birjanın mahiyyəti . Birjanın təşkili . Birjanın növləri . Əmək birjası. Fond birjası. Valyuta birjası. Qiymətli kağızlar birjası .

Broker və diller fəaliyyəti . Yarmarkaların yaranması və təşkil . Auksionların mahiyyəti . Auksionların təşkili . Auksionların növləri :

- Könüllü auksion
- Məcburi auksion

***Mövzu 10.*** **Bazar iqtisadiyyatında mülkiyyətin növü və formaları – 4 saat**

Mülkiyyət iqtisadi və hüquqi kateqoriya kimi . Mülkiyyət hüququ . Mülkiyyətin obyektləri . Mülkiyyətin subyektləri . Mülkiyyətin əsas formaları . Dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mulkiyyəti . Mülkiyyətin iqtisadi reallaşdırılması. Mülkiyyət formalarında sahib olma ,istifadə etmə və sərəncam vermə xüsusiyyətləri .

***Mövzu 11.*** **Dövlətsizləşdirmə və özəlləşdirmə. Azərbaycanda özəlləşdirmənin xüsusiyyətləri – 4 saat**

Dövlətsizləşdirmənin mahiyyəti . Dövlətsizləşdirmə - dövlətin iqtisadiyyatda hədsiz rolunun azaldılması istiqamətində aparılan islahat kimi. Dövlətsizləşdirmənin dörd üsulu haqqında .Özəlləşdirmənin yaranması. Özəlləşdirmə və dövlətsizləşdirmənin oxşar və fərqli cəhətləri . Azərbaycanda özəlləşdirmənin başlıca məqsədi. Azərbaycanda özəlləşdirmənin dörd əsas mərhələsi.

***Mövzu 12.*** **Təsərrüfat fəaliyyətinin əsas formaları – 4 saat**

Təsərrüfat fəaliyyətinin əsas formaları:

- Sahibkarlıq
- Biznes
- Kommersiya
- Marketinq
- Menecment və s.

Sahibkarlığın iqtisadi mahiyyəti. Sahibkarlıq fəaliyyətinin növləri. İstehsal sahibkarlığı. Kommersiya sahibkarlığı, maliyyə sahibkarlığı və innovasiya sahibkarlığı. Biznes və onun mahiyyəti. Biznesin funksiyaları.Muasir marketinqin əsas funksiyaları. Marketinqin vəzifələri və prinsipləri .Menecmentin mahiyyəti. Menecmentin vəzifələri. Kommersiya - ticarət sahibkarlığının bir növü kimi. Kommersiya və ticarət.

**Mövzu 13. Bazar iqtisadiyyatının inkişafında rəqabətin mahiyyəti və rolu – 4 saat**

Rəqabətin mahiyyəti. Bazar münasibətləri şəraitində rəqabət mexanizmi. Müasir şəraitdə rəqabətin inkişafı. Azad rəqabətin formaları. Sahədaxili rəqabət və sahələrarası rəqabət. Rəqabətin tipləri. Təkmil rəqabət qeyri - təkmil rəqabət. Təkmil rəqabət bazarı və onun

effektivliyi. Qeyri - təkmil rəqabət bazarı və bazar hökmranlığ. Qeyri - təkmil rəqabət bazarının növləri. Xalis inhisar,oliqopoliya və inhisarçı rəqabət.

***Mövzu 14.* İqtisadiyyatda inhisarçılıq, inhisar formaları – 4 saat**

İqtisadiyyatda inhisarçılıq.İnhisarçılığın sosial-iqtisadi nəticələri. İnhisarın formaları:

- Kapital
- Sindikat
- Trest

Konsern fəaliyyəti. Dövlətin inhisarçılığa qarşı mübarizəsi. Antiinhisar siyasəti.

***Mövzu 15*. Bazar iqtisadiyyatında istehsal və istehsal xərcləri – 4 saat**

Bazar iqtisadiyyatında istehsalın təşkili. İstehsal amilləri. Əmək vasitələri,əmək predmeti,əmək ehtiyatları.Şəxsi və maddi amillər. İstehsal xərcləri haqqında.İstehsal xərclərinin növləri. Daxili xərclər və xarici xərclər.

## ƏDƏBİYYAT


1. A.Əliyev , A.Şəkərəliye"Bazar iqtisadiyyatına keçid" 2002.

2. V.Niftullayev "Sahibkarlıgın Əsasları " Bakı- 2002.

3.S.İbadov"İqtisadiyyat" Bakı- 2008.

4.T.Vəliyev,N.Məmmədov" İqtisadiyyatın Əsasları"2008.

5 .T.Vəliyev,Ə.Babayev , M. Meybullayev" İqtisadi Nəzəriyyə" 2001

6 .A.Əsədov, D .Vəliyev "Beynəlxalq İqtisadiyyat" Bakı-2012.

7 .Ç.Abbasov "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları" Bakı-2005.

8 .Ş.Qafarov "Müasir iqtisadi sistem və qloballaşma" Bakı-2005.

9 .Q.Abbasov "Bazar iqtisadiyyatının əsasları" Bakı-1994.

10.Q.Manafov "Bazar iqtisadiyyatı nəzəriyyəsinə giriş"

11.A.Məmmədov "Marketinqin Əsasları" Bakı-2007

12.Filip Kotler "Marketinqin Menecmenti" (tərcümə) Bakı-2010.

**Bakı İdarəetmə və Texnologiya Kollecinin müəllimi Abdulova Gülnarə Fazil qızının "Bazar iqtisadiyyatının əsasları" dərs proqramına**

## RƏY

"Bazar iqtisadiyyatının əsasları" fənninin proqramı təhsil konsepsiyasına uyğun şəkildə hazırlanmışdır. Proqramda mövcud standart və tədris planına uyğunluq əsas götürülmüşdür. Proqram orta ixtisas məktəbləri üçün nəzərdə tutulmuşdur. "Bazar iqtisadiyyatının əsasları" fənni həm kolleclərdə, həm də universitetlərdə tədris olunur. Bu fənnin tədris olunması tələbələrin bazar iqtisadi sistemi haqqnda biliklərinin artmasına səbəb olur. Belə ki, "Bazar iqtisadiyyatının əsasları" fənninin tədris olunmasında əsas məqsəd tələbələrin bazar iqtisadiyyatının formaları, prinsipləri və mahiyyəti ilə bağlı biliklərini çoxaltmaqdan ibarətdir. Müstəqil Azərbaycan dövləti sosial yönümlü açıq bazar iqtisadiyyatı qurmaq yolunu əsas götürmüşdür. Bu məqsədlə də respublikamızda bu sahədə bir çox islahatlar həyata keçirilmişdir.

Müəllim Abdulova Gülnarənin tərtib etdiyi proqramda mövzular məntiqi ardıcıllıqla əlaqələndirilməklə bazar iqtisadi sisteminin mövcud vəziyyəti və perspektivləri ilə aydınlaşdırılır. Tədris proqramının "Bazar iqtisadiyyatının əsasları" fənnini tam əhatə etdiyini nəzərə alaraq onun dərc olunmasını məqsədəuyğun hesab edirəm.

**Bakı İdarəetmə və Texnologiya**
**Kollecinin müəllimi** **Zeynalova Reyhan Feyruz**